Səh. 2 Fərq – Azər Musaoğlu
Səh. 5 Qızlar qızıla dönüb, xəbəri yox nənələrin – Esmira Ələkbərli
Səh. 5 Potlaçın təhsilə sıçrayışı – Çiyalə Osmanova
Səh. 6 Məktəbin və müəllimin rolu – Leyla Yusifova
Səh. 3 Gürcüstan həlledici seçim qarşısında – Şahin Cəfərli
Səh. 4 2022-2023-CÜ TƏDRİS İLİNDƏ 14911 ŞAGİRD TƏHSİLİNİ DAYANDIRIB
Səh. 7 Xatirələr – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 OKTYABR 2024-CÜ İL
№ 17 (212)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANIN XARİCİ DÖVLƏT BORCU 9 MİLYARD DOLLARI KEÇİB



Gürcüstanın xarici dövlət borcu sentyabrın sonuna 9,03 milyard dollar təşkil edib və ilk dəfə 9 milyard dollar həddini keçib. Bu, Gürcüstan Maliyyə Nazirliyinin saytında dərc edilmiş məlumatlarda öz əksini tapıb.

Məlumata əsasən, Gürcüstanın dövlət borcu bir ay əvvəlki göstərici ilə müqayisədə 43,4 milyon dollar artıb. Ələlxüsus, Avropa İnvestisiya Bankına olan borc 9,1 milyon dollar, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına olan borc isə 17 milyon dollar artıb. Gürcüstanın dövlətlərə olan borcları arasında Fransaya olan borcu 1,6 milyon dollar artaraq 814,5 milyon dollardan çox olub. Almaniyaya olan borcu 7,2 milyon dollar artaraq 617,6 milyon dollar təşkil edib. Gürcüstanın Rusiyaya olan borcu dəyişməz qalaraq 7,8 milyon dollar təşkil edib.

İl ərzində Gürcüstanın dövlət borcu 580,7 milyon dollardan çox artıb, o cümlədən ölkənin Asiya İnkişaf Bankına olan borcu 216,3 milyon dollar, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına olan borcu isə 220,4 milyon dollar artıb.

## AVROPA PARLAMENTİ GÜRCÜSTANLA BAĞLI QƏTNAMƏ QƏBUL EDİB



Avropa Parlamenti Gürcüstanla bağlı qətnaməni dəstəkləyib. Avropa Parlamentinin 495 üzvü qətnamənin lehinə, 73-ü əleyhinə səs verib, 86-sı isə bitərəf qalıb.

Qətnaməyə əsasən, Avropa Parlamenti Gürcüstanda demokratiyanın azalmasından dərin təəssüf hissi keçirir və Avropa İttifaqını Bidzina İvanişviliyə və Gürcüstanda demokratiyaya xələl gətirən bütün şəxslərə qarşı şəxsi sanksiyalar tətbiq etməyə çağırır.

Qətnamənin mətnində Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilinin azadlığa buraxılması və viza rejiminin liberallaşdırılması məsələsindən də bəhs edilir. Avropa Parlamenti, həmçinin Gürcüstan hökumətini Rusiyaya qarşı sanksiyalar tətbiq etməyə çağırır.

## AVROPA İTTİFAQI GÜRCÜSTANA 121 MİLYON AVRO MƏBLƏĞİNDƏ MALİYYƏ YARDIMINI DAYANDIRIB




Gürcüstan hökuməti Avropa İttifaqının (Aİ) 121 milyon avro məbləğində maliyyə yardımından məhrum olacaq. Buna Gürcüstan hökumətinin demokratik standartlardan uzaqlaşması səbəb olub. Bu barədə Aİ-nin Gürcüstandakı nümayəndəliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, Avropa İttifaqı 2022, 2023 və 2024-cü illərdə Gürcüstan hökuməti üçün 121,3 milyon avro məbləğində illik vəsait ayırıb. Lakin bu vəsait 2024-cü ildə dayandırılacaq. Buna səbəb Gürcüstan hökumətinin demokratik standartlardan uzaqlaşması, xüsusən də vətəndaş cəmiyyətinə qarşı yönəlmiş “Xarici təsirin şəffaflığı haqqında” qanunun qəbulu olub.

Məlumatda o da qeyd edilib ki, Gürcüstan təkcə bu yardımdan deyil, digər yardımlardan da məhrum edilə bilər.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARININ RUSİYADA QALMA MÜDDƏTİ ARTIRILIB




Rusiya Gürcüstan vətəndaşları üçün vizasız rejimin müddətini artırıb. Bununla bağlı Rusiya Prezidenti Vladimir Putin Fərman imzalayıb.

Fərmana əsasən, Gürcüstan vətəndaşları vizasız Rusiyada 90 gündən artıq müddətdə qala və işləyə biləcəklər.

Qeyd edək ki, Vladimir Putinin Fərmanı ilə 2023-cü il mayın 10-dan Gürcüstan vətəndaşları üçün tətbiq olunan viza rejimi ləğv olunmuşdu.

Fərmana əsasən, həmin il mayın 15-dən Gürcüstan vətəndaşlarına şəxsiyyəti təsdiq edən sənədlə, vizasız Rusiya ərazisinə daxil olmaq və 90 günə qədər bu ölkədə qalmaq hüququ verilirdi.



# FƏRQ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Günlərin bir günü saçlarını kəsdirmək üçün bərbərin yanına bir gülçü gəlir. Gülçü bərbərə pul vermək istəyəndə bərbər pulu götürmür ki, bu həftə ictimai əsaslarla işləyirəm, pul götürmürəm. Gülçü bərbərə təşəkkür edib gedir. Növbəti gün bərbər bərbərxananın qapısını açanda qapının ağzında təşəkkür məktubu və 12 ədəd qızılgül görür.

Sonra bərbərin yanına çörəkçi gəlir. Saçlarını kəsdirib qurtarandan sonra bərbərə pul uzadır, bərbər deyir: "Pul götürə bilmərəm. Bu həftə ictimai əsaslarla saç kəsirəm". Çörəkçi razı halda gedir. Növbəti gün bərbər qapının ağzında təşəkkür məktubu və 12 ədəd pirojna görür.

Daha sonra saçlarını kəsdirmək üçün bərbərin yanına südçü, tərəvəzçi, qəssab və dülgər gəlir. Bərbər bunlardan da pul götürmür və hər dəfə bərbərxanasının qapısının ağzında təzə süd, pendir, şor, meyvə-tərəvəz, kolbasa, hətta taxtadan düzəldilmiş at fiquru görür...

Bərbərin yanına saçlarını kəsdirməyə senator da gəlir. Pul vermək istəyəndə bərbər deyir: "Pul götürə bilmərəm. Bu həftə ictimai əsaslarla saç kəsirəm". Senator sevincək gedir.

Növbəti gün bərbər işə gələndə bərbərxananın qapısının ağzında 12 senator, 10 deputat, 15 müşavir, bir neçə nazir, mer və merin 6 uşağını görür. Hamısı da pulsuz saç qırxdırmaq üçün bərbəri gözləyirlər...

Bu pritça bizə adi, zəhmətkeş, halal insanlarla, onları idarə edən bir qrup insanlar arasındakı fərqi izah edir. Əslində, bu fərqi göstərmək, izah etmək üçün pritçaya, məsələ, atalar sözünə ehtiyac da yoxdur bu gün. Hər şey gün kimi aydındır. Kor kor, gör gör...

Daha heç nə gizlin deyil. Yataq otaqlarına qədər yol tapmış kameraların gözündən heç nə qaçmır bu "şəffaf" dünyada. İndi kimin əlinin kimin cibində olduğunu, kimin əyilə-əyilə kimin evindən çıxdığını hamı çox yaxşı bilir. Bunun üçün gecənin ortasında qəfil günün doğmasına, dünyanın dümağ işıqlanmasına gərək yoxdur. Kimin doğru, kimin oğru olduğu aydındır. Bunun üçün oturub qiyaməti gözləməyə də gərək yoxdur. Məsələn, hamıya bəllidir ki, adi oğru pul, bahalı əşya, toyuq-cücə, mal-qara, risk etsə avtomobil oğurlayır və oğurlayacağı adamı özü seçir. Qeyri-adi, oğru siyasətçi isə insanların mülkünü, vergisini, təhsilini, istirahətini, işini, pensiyasını, vicdanını, hüququnu, gələcəyini oğurlayır və bu oğrunu hamı seçir. Və ya oğru din xadimi insanların nəzirini, zəkatını, imanını, cənnətini oğurlayır. Oğru həkim insanların inamını, arzusunu, sağlamlığını, ömrünü oğurlayır və sair.

Pritçadakı bərbərin, gülçünün, çörəkçinin, südçünün, tərəvəzçinin, qəssabın, dülgərin senatordan, deputatdan, müşavirdən, nazirdən, merdən fərqi həm də ondan ibarətdir ki, birincilər işləyir, ikincilər yeyir; birincilər zəhmətlə qazanır, ikincilər onların əllərindən alır; birincilər cəmiyyət üçün faydalı, lazımlı iş görür, ikincilər özləri üçün, cibləri üçün, qohumları üçün; birincilər olmasalar insanların saçı-saqqalı uzanar, ot-əncər hər yanı basar, hamı çörəksiz qalar, əzraq, meyvə-tərəvəz, ət qəhətə çəkilər, evlər mebelsiz, qapı-pəncərəsiz qalar, ikincilər olmasalar isə birincilər daha çox rifah içində yaşayarlar, sürgünlər, repressiyalar, müharibələr olmaz...

İndi ağız büzüb yaxşı ilə pisin fərqini uzun-uzadı izah etməyə çalışanlar da tapılacaq. Atalar demiş, ilanın ağına da lənət, qarasına da.

İlan demiş, görəsən sürünənlər də özlərinə bilə-bilə oğru senator, deputat, nazir, mer, prezident seçirlərmi ki, seçdikləri onların yeməyini oğurlasın, yuvasını özəlləşdirsin, azadlığını məhdudlaşdırsın, quyruğunu (hüququnu) tapdalasın və sair. Bunu herpetoloqlardan soruşmaq lazımdır. Bəlkə də seçirlər, elə ona görə sürünürlər. Axı sürünmək üçün doğulanlar uça bilməzlər heç vaxt. Bir fərq də budur...

## PREZİDENT SALOME ZURABİŞVİLİ İLƏ BAĞLI YENİDƏN İMPİÇMENT BAŞLADILIB



Hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" Partiyası Prezident Salome Zurabişvilinin impiçmenti proseduruna yenidən başlayıb. Bu barədə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, qərarın verilməsi Prezident S.Zurabişvilinin hökumətin icazəsi olmadan yenidən Paris, Brüssel, Berlin və Varşavaya səfər etməsi ilə bağlıdır.

Şalva Papuaşvili qeyd edib ki, Prezidentin impiçmenti ilə bağlı qərar parlament seçkilərinə qədər Gürcüstanın Konstitusiya Məhkəməsinə təqdim olunacaq. Gürcüstan Konstitusiya Məhkəməsi tərəfindən konstitusiyanın pozulması faktı təsdiqləndikdən sonra yeni çağırış parlamentin ilk sessiyalarında Salome Zurabişvili ən azı 100 səslə impiçment qaydasında vəzifəsindən uzaqlaşdırılacaq.

Qeyd edək ki, S.Zurabişvilinin səlahiyyət müddəti parlament seçkilərindən sonra başa çatır. Buna görə də impiçment yolu ilə vəzifəsindən kənarlaşdırılması onun səlahiyyət müddətini maksimum bir ay qısalda bilər. "Prezidentin impiçment qaydasında vəzifəsindən kənarlaşdırılmasının hüquqi və siyasi əhəmiyyəti çox prinsipialdır. Gürcü xalqının əsas qanununun bilərəkdən, kobud və sistematik pozulması cəzasız qala bilməz", – deyə Şalva Papuaşvili vurğulayıb.

Məlumat üçün bildirək ki, "Gürcü Arzusu" partiyası Salome Zurabişviliyə qarşı impiçment prosesinə ilk dəfə 2023-cü il sentyabrın 1-də başlayıb. Səbəb Prezidentin hökumətin razılığı olmadan Gürcüstanın Avropa kursunu dəstəkləmək üçün Avropa turnesi həyata keçirməsi olub.

2023-cü il oktyabrın 16-da Konstitusiya Məhkəməsi Prezidentin Konstitusiyanı pozduğunu təsdiqləyib. Bunun ardınca proses parlamentə keçib.

Hakim partiyaya impiçmenti həyata keçirmək üçün 100 səs lazım idi, lakin impiçment uğursuz olub. "Gürcü Arzusu" Salome Zurabişvilini vəzifəsindən uzaqlaşdıra bilməyib. 90 deputat qeydiyyatdan keçib, 86 deputat impiçmenti dəstəkləyib, 1 deputat isə əleyhinə səs verib.

## RUSİYA-GÜRCÜSTAN DANIŞIQLARININ 62-Cİ RAUNDU NOYABRDA KEÇİRİLƏCƏK



Rəsmi Tbilisi Gürcüstan ilə Rusiya arasındakı Cenevrə beynəlxalq danışıqlarının 62-ci raunduna ciddi hazırlaşır.

Gürcüstan Xarici İşlər Nazirliyində Avropa İttifaqı, BMT və ATƏT-dən olan həmsədrlərin iştirakı ilə toplantı keçirilib.

Gürcüstan xarici işlər nazirinin birinci müavini və Cenevrədəki beynəlxalq danışıqlarda Gürcüstan nümayəndə heyətinin rəhbəri Laşa Darsaliya danışıqların mövzusu barədə məlumat verib.

Görüşdə Cenevrə beynəlxalq danışıqlarının səmərəli fəaliyyət göstərməsinin vacibliyi vurğulanıb.

Bundan əlavə, Hadisələrin Qarşısının Alınması və Müdaxilə Mexanizminin (IPRM) heç bir ilkin şərt qoyulmadan bərpa edilməsinin və əsas prinsiplərə uyğun olaraq bu mexanizmin Qali və Erqnetidə mütəmadi iclaslarının keçirilməsinin vacibliyi qeyd edilib.

Cenevrə beynəlxalq danışıqlarının 62-ci raundu noyabrın 5-6-na planlaşdırılıb.

# GÜRCÜSTAN HƏLLEDİCİ SEÇİM QARŞISINDA



Oktyabrın 26-da Gürcüstanda çox vacib seçki keçiriləcək. Postsovet məkanında avrointeqrasiya istiqamətində çoxdan seçim etmiş və ötən müddətdə bu yolda xeyli irəliləmiş Gürcüstan təkrar yolayrıcına qayıdıb, yaxud qaytarılıb. Xalq parlamentin yeni tərkibini və hökuməti hansı siyasi partiyanın formalaşdıracağını müəyyən etməklə bərabər, ölkənin hansı istiqamətdə irəliləyəcəyinə də bir daha qərar verməlidir. Hakimiyyətin və müxalifətin yeganə ortaq qənaəti bundan ibarətdir ki, 26 oktyabr seçkiləri Gürcüstanın gələcəyi ilə bağlı referendum mahiyyəti daşıyır. "Gürcü Arzusu" hökuməti xalqın sülh və müharibə; müxalifət isə Avropa və Rusiya arasında seçim edəcəyini bildirir. Bu yazıda Gürcüstanda seçkiqabağı vəziyyət və 26 oktyabr seçkilərinin ekzistensial xarakterli seçimə çevrilməsinin səbəblərini təhlil edirəm.

2017-ci il Konstitusiya dəyişikliklərinə əsasən, 2024-cü il seçkiləri tam proporsional sistem üzrə keçiriləcək və azı 5 % səs almış partiya və bloklar parlamentdə təmsil olunacaq. Hər hansı partiya və ya blok 150 üzvdən ibarət parlamentdə azı 76 yer əldə edə bilməsə, koalisiya hökuməti yaradılmalıdır. Siyasi partiyaların Mərkəzi Seçki Komissiyasında qeydiyyatı avqustun 30-da yekunlaşıb və 27 partiya öz namizədlər siyahısını təqdim etmək hüququ əldə edib.

**Seçki öncəsi qüvvələr nisbəti**

Dağınıq və parçalanmış vəziyyətdə olan müxalifət düşərgəsində qismən təmərküzləşmə baş verib və 3 seçki bloku formalaşdırılıb:

***Birlik bloku.*** Eks-prezident Mixail Saakaşvilinin qurucusu və faktiki lideri olduğu Vahid Milli Hərəkat Partiyasının ətrafında formalaşan bu ittifaqın digər üzvləri daha əvvəl Vahid Milli Hərəkatdan ayrılmış Ağmaşenebeli Strategiyası və Avropalı Gürcüstan partiyalarıdır;

***Dəyişikliklər Uğrunda Koalisiya.*** Vahid Milli Hərəkatın keşmiş sədri Nika Meliya və məşhur jurnalist, Mtavari arxi telekanalının yaradıcısı Nika Qvaramiyanın təsis etdikləri Axali Partiyasının ətrafında formalaşan bu blokun digər iştirakçıları Droa və Qirçi – daha çox Azadlıq partiyalarıdır;

***Güclü Gürcüstan bloku.*** İş adamı, TBC Bankın təsisçisi Mamuka Xazaradzenin yaratdığı Gürcüstan üçün Lelo Partiyasının ətrafında formalaşan bu blokun digər üzvləri Azadlıq Meydanı, Xalq Uğrunda və Vətəndaşlar partiyalarıdır.

"Edison Research" tərəfindən 1-15 sentyabrda aparılan rəy sorğusuna əsasən, hər üç blok 5 %-lik minimal baryeri aşır və bu şansa malik daha 3 müxalifət partiyası var: keçmiş baş nazir Georgi Qaxariyanın yaratdığı Qaxariya – Gürcüstan Uğrunda, Yeni siyasi mərkəz – Qirçi və Leyborist partiyaları. Bu sorğunun nəticələrinə əsasən, müxalifət ümumilikdə 62 %-ə yaxın səs alır və parlamentdə çoxluq qazanır. Son illər dövlət içərisində hökumətə qarşı müxalif mərkəzə çevrilmiş prezident Salome Zurabişvili seçki ərəfəsində müxalifəti yol xəritəsi ətrafında birləşdirmək üçün mayın 27-də Müstəqillik günü ilə bağlı tədbirdə "Gürcü Xartiyası" adlı təşəbbüslə çıxış edib və iyunun 3-də bu sənəd 17 siyasi partiya tərəfindən imzalanıb. Aparıcı müxalif partiyalardan olan Qaxariya-Gürcüstan Uğrunda Partiyası isə seçki kampaniyası başladıqdan sonra – sentyabrın 23-də Xartiyaya imza atıb. Bu sənədi imzalayan partiyalar seçkilərdə qalib gələcəkləri təqdirdə bitərəflərdən ibarət müvəqqəti texniki hökumət formalaşdırılması, avrointeqrasiyaya zidd bütün qanunların ləğvi və Aİ ilə danışıqlara qayıdış, islahat xarakterli qanunların qəbulu və tezliklə azad, demokratik mühitdə növbədənkənar seçkilərin keçirilməsi barədə üzərlərinə öhdəlik götürüblər.

Lakin hökumətə yaxın Qorbi mərkəzinin 24 iyul-4 avqust tarixləri arasında apardığı sorğuya inansaq, müxalifətin heç bir şansı yoxdur. Belə ki, həmin sorğuya əsasən, "Gürcü Arzusu" 60 %-ə yaxın səs alır, 3 müxalifət bloku 5 %-lik baryeri keçir və onlar ümumilikdə 25 %-ə yaxın səs toplayır. Qorbinin sorğusu mübahisəlidir, amma bu rəqəmlər, necə deyərlər, havadan götürülməyib. "Gürcü Arzusu"nun əhalinin 60 %-i tərəfindən dəstəkləndiyini partiyanın qurucusu və fəxri sədri Bidzina İvanişvili bu sorğudan əvvəl – 16 iyul tarixində söyləmişdi. İvanişvili və hakim partiyanın digər liderləri davamlı bildirirlər ki, onların məqsədi təkcə qalib gəlmək deyil, həm də konstitusion çoxluq qazanmaqdır. Xatırlatmaq yerinə düşər ki, "Gürcü Arzusu" öz ictimai nüfuzunun zirvəsində olduğu dövrdə – 2012-ci il seçkilərində 55 %-ə yaxın səs alıb. 2016-cı və 2020-ci il seçkilərinin müxalifət tərəfindən mübahisələndirilən rəsmi nəticələrinə əsasən isə hakim partiya 48 % səs toplayıb.

Partiyanın namizədlər siyahısının 1-ci sırasına Bidzina İvanişvilinin adının yazılması onun qarşıdakı seçkilərə nə qədər böyük əhəmiyyət verdiyini göstərir. Belə hal ilk dəfədir baş verir: İvanişvili indiyədək heç bir seçkidə "Gürcü Arzusu"nun namizədlər siyahısına başçılıq etməyib. O, 16 iyulda partiyasının yeni ofis binasının açılış mərasimindəki proqram xarakterli çıxışında bu seçkiləri sülh və müharibə, köləlik və ləyaqət, qaranlıq keçmişə qayıdış və inkişaf arasında referendum, hətta daha da irəli gedərək, son və həlledici döyüş kimi qiymətləndirib. Onun fikrincə, 26 oktyabr seçkiləri ölkəni xaosa sürükləmək və ikinci cəbhə (Rusiyaya qarşı) açmaq üçün "qlobal müharibə partiyası"nın agenturası olan "kollektiv milli hərəkat" (Saakaşvilinin partiyası və digər qərbyönümlü müxalifət nəzərdə tutulur) üçün son döyüşdür. "Gürcü Arzusu" üçün isə ölkədə sülhün tam möhkəmlənməsi, radikalizm və qütbləşməyə son qoyulması, sabitlik və iqtisadi tərəqqi, milli şərəfin müdafiəsi, Avropa perspektivinin qorunub saxlanılması məqsədilə həlledici döyüşdür.

Göründüyü kimi, İvanişvili və onun hökuməti avrointeqrasiyadan rəsmi olaraq imtina etmir, hətta bu məqsədi yalnız özünün reallaşdıra biləcəyini vurğulayır. Bunun əsas səbəbi odur ki, "Gürcü Arzusu"nun seçicilərinin əksəriyyəti Avro-Atlantik inteqrasiyanın tərəfdarıdır. Lakin İvanişvili ilə komandasının həm ritorikası, həm də siyasəti getdikcə daha çox Putin Rusiyası ilə bənzərlik təşkil etməyə başlayıb. 1783-cü ildə Rusiya İmperiyası ilə Georgiyevsk traktatını imzalamış gürcü çarı II İrakliyə paytaxtda heykəl ucaldılması barədə hökumətin qərarı bu baxımdan simvolik məna kəsb edir.

**Seçki sonrası vətəndaş qarşıdurması riski**

2023-cü ilin dekabrında Avropa İttifaqı Şurasının Gürcüstana Aİ üzvlüyünə namizəd statusu verilməsi barədə rəsmi qərarını elan etməsi gürcülərin müstəqilliyin ilk anlarından, hətta sovet dövründən xəyalını qurduqları və bu yolda çətin mübarizə mərhələlərindən keçdikləri idealın gerçəkləşməsi istiqamətində atılmış tarixi addım idi. Lakin bu hadisənin ölkədə yaratdığı bayram əhvalı uzun sürmədi və "Gürcü Arzusu" həmin ilin martında parlamentdə birinci oxunuşdan keçirib, etiraz aksiyalarından sonra geri çəkdiyi "Xarici təsir agentləri haqqında" qanun layihəsini təkrar gündəmə gətirdi. Bu layihənin qəbul olunacağı halda ölkənin üzvlüyə qəbulu prosesinin dayandırılacağı barədə Aİ rəhbərliyindən; eyni zamanda ABŞ-la strateji tərəfdaşlığın ciddi zərər görəcəyi barədə Vaşinqtondan gələn xəbərdarlıqlara baxmayaraq, 2024-cü ilin mayında qanun parlamentdə təsdiqləndi və avqust ayından etibarən qüvvədədir. Sentyabrın 17-də isə Qərbin etirazına səbəb olan daha bir qanun layihəsi – Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında adlı anti-LGBT qanunu qəbul olundu. Hər iki qanun Rusiyada daha əvvəl qəbul olunmuş qanunvericilik aktlarının analoqudur və Gürcüstanın müxalif çevrələrində rus qanunları kimi xarakterizə olunur. Hökumət mənsubları isə qeyd edirlər ki, bu qanunlar gürcü milli kimliyini və milli-mənəvi dəyərlərini qorumağa yönəlib. Planlaşdırılan Konstitusiya dəyişikliklərində gürcü pravoslav kilsəsinin xüsusi rolunun vurğulanması və pravoslav xristianlığın gürcü dövlətinin kimliyinin təməli kimi qeyd olunması da nəzərdə tutulub.

Bidzina İvanişvili, Baş nazir Kobaxidze, Tbilisi meri Kaladze başda olmaqla, "Gürcü Arzusu"nun yuxarı və aşağı səviyyəli bütün nümayəndələri seçki kampaniyasında ifrat aqressiv ritorikadan istifadə edirlər. Onlar siyasi palitranı ağ və qara rəngə ayıraraq, müxalifətə xain və satqın damğası vururlar. Gürcüstan siyasətində 1937-38-ci ilin ruhu dolaşır. Təkcə Saakaşvilinin partiyası deyil, onunla əlaqəsi olmayan digər müxalifət partiyaları da kollektiv milli hərəkat anlayışına aid edilərək, bir növ, legitimsizləşdirilir. Bu, ölkədə vətəndaş qarşıdurması riski yaradan çox təhlükəli yanaşmadır. Əgər səsvermənin yekunları hökumət üçün arzuolunmaz tablo ortaya çıxararsa, nəticələrə müdaxilə edilməsi ehtimalı var, çünki hökumət təmsilçilərinin dili ilə ifadə etsək, agenturaya, vətən xainlərinə dövlət hakimiyyəti vermək olmaz. Üstəlik, hakim partiyanın əsas vədlərindən biri budur ki, seçkidən sonra Vahid Milli Hərəkat və ona yaxın siyasi qüvvələr, yəni kollektiv milli hərəkat üzərində məhkəmə qurulacaq və bu qüvvələr qeyri-konstitusional elan ediləcək. "Gürcü Arzusu"nun parlament çoxluğu əldə edə bilməyəcəyi təqdirdə fəaliyyətini qadağan etməyə hazırlaşdığı müxalifətə hakimiyyəti könüllü təhvil verəcəyinə inanmaq əsassız nikbinlik olardı, baxmayaraq ki, Gürcüstanda yaxın keçmişdə bir dəfə (2012-ci il) hakimiyyətin seçki yolu ilə dinc şəkildə ötürülməsi təcrübəsi var.

Bütün əlamətlər onu deməyə əsas verir ki, Gürcüstandakı gərgin seçki kampaniyası seçki gecəsi və sonrasında ciddi vətəndaş qarşıdurması ilə nəticələnə bilər.

**İvanişvili ilə Rusiya arasında gizli razılaşma şübhəsi**

Ardıcıl və israrlı şəkildə konstitusion çoxluq qazanmağın vacibliyindən danışan "Gürcü Arzusu" bu zərurətin nə ilə əlaqədar olduğunu avqustun 20-də açıqlayıb və məlum olub ki, ölkənin ərazi bütövlüyünü bərpa etmək üçün Konstitusiya dəyişikliyinə ehtiyac var. Partiyadan bildirilib ki, Gürcüstanın ərazi bütövlüyünü dinc yolla bərpa etmək üçün ölkənin inzibati-ərazi quruluşuna dəyişiklik etmək lazımdır. İvanişvili avqustun 31-də seçicilər qarşısında çıxışında deyib ki, Gürcüstan hər an öz ərazi bütövlüyünün sülh yolu ilə bərpasına hazır olmalıdır, bunun üçün isə hakimiyyətdəki komanda maksimal legitimliyə ehtiyac duyur. Onun sentyabrın 14-də Qori şəhərindəki çıxışı isə daha çox əks-səda doğurdu. İvanişvili 2008-ci ildəki müharibəyə görə Saakaşvili hökumətini ittiham edərək bəyan etdi ki, seçkidən sonra kollektiv milli hərəkat üzərində Nürnberq prosesi qurulacaq və bu hadisə gürcülərlə osetinlərin barışması üçün ilkin şərt olacaq. "Müharibənin bütün günahkarları məhkum olunduqdan, gürcü-osetin qardaşlığının pozulmasına cavabdehlik daşıyanların hamısı sərt hüquqi qiymət aldıqdan sonra biz xain Milli Hərəkatın osetin bacı-qardaşlarımızı od-alova qərq etməsinə görə üzr istəməyə özümüzdə güc tapacağıq", – deyə İvanişvili vurğulayıb.

Bütün bunlar İvanişvili ilə Rusiya arasında məxfi müzakirələrin aparıldığı və bəzi razılaşmaların əldə olunduğu barədə şübhələrə əsas verir. Oliqarxın Rusiya ilə yaxın əlaqələri sirr deyil və o, öz sərvətinin böyük hissəsini məhz Rusiyada qazanıb. Əgər Gürcüstan öz ərazi bütövlüyünü siyasi-diplomatik üsullarla bərpa edəcəksə, aydındır ki, hazırkı mərhələdə bu, yalnız Rusiyanın razılığı ilə mümkündür. Moskva isə, təbii olaraq, öz maraqlarının maksimum təmin edilməsi şərti ilə bu razılığı verə bilər. Cənubi Osetiyanı verib, əvəzində bütün Gürcüstanı almaq şansı varsa, Moskva bu şansı, yəqin ki, əlindən qaçırmaz. Böyük ehtimalla, Gürcüstanın inzibati-ərazi quruluşunun dəyişdirilməsi məsələsi də gizli dialoqda gündəmə gətirilib və Cənubi Osetiyanın respublika statusunda, federasiya subyekti kimi Gürcüstana reinteqrasiyasını ehtiva edir. (Sovet dövründə Cənubi Osetiya muxtar vilayət kimi Gürcüstana daxil idi). Hələ ki, Abxaziyanın adı hallanmır. Bu regionun dənizə çıxışı var və Cənubi Osetiya ilə müqayisədə Rusiya üçün strateji əhəmiyyəti daha böyükdür. Hazırda Abxaziyanın Oçamçire rayonunda Rusiya Qara dəniz donanmasının bazası yaradılır.

Putin rejiminin Saakaşvili ilə düşmənçiliyinə istinadən ehtimal kimi qeyd edə bilərik ki, Vahid Milli Hərəkat başda olmaqla, qərbyönümlü gürcü müxalifətini və vətəndaş cəmiyyətini əzmək də, ola bilsin, Rusiyanın şərtlərinə daxildir. Rus qanunlarının qəbulundan sonra bu da baş verərsə, Gürcüstanın Avro-Atlantik inteqrasiyasına qəti şəkildə son qoyulacaq. Gürcüstanda sərt avtoritar rejim bərqərar olacaq və bu rejim Qərbdən gözlənilən sanksiyalar qarşısında Moskvanın himayəsinə ehtiyac duyacaq. Gürcüstanın Rusiya təsir sferasına qayıtması Moskvanın Cənubi Qafqazda mövqelərini yenidən möhkəmləndirəcək, bu isə öz növbəsində Rusiyadan tədricən uzaqlaşıb Qərbə yaxınlaşmağa çalışan Ermənistanın indiki hökumətinin bölgədə təklənməsinə və onun Avropaya yeganə çıxış yolu (Gürcüstan) üzərində Moskvanın söz sahibi olmasına gətirib çıxaracaq.

**Şahin CƏFƏRLİ**
*Siyasi şərhçi*
*Mənbə: bakuresearchinsitite.org*

## GÜRCÜSTANIN YENİ TƏHSİL, ELM VƏ GƏNCLƏR NAZİRİ ALEKSANDRE TSULADZEDİR



Aleksandre Tsuladze Gürcüstanın yeni təhsil, elm və gənclər naziri təyin edilib. Bu barədə ölkənin Baş naziri İrakli Kobaxidze oktyabrın 2-də hökumət administrasiyasında keçirilən brifinqdə açıqlama verib.

O bildirib ki, Aleksandre Tsuladze indiyə qədər təhsil, elm və gənclər nazirinin müavini, həmçinin Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin rəhbəri vəzifəsini tutub.

*"İlk növbədə Gürcüstanın Baş nazirinə və bütün komandaya göstərdikləri etimada görə təşəkkür etmək istərdim. Sizin komandanızın üzvü olmaq mənim üçün böyük şərəf və məsuliyyətdir. Həmçinin mən cənab Giorgi Amilaxvariyə apardığı bütün islahatlara görə təşəkkür etmək istərdim. Ümidvaram ki, biz bu islahatları bundan sonra da uğurla həyata keçirəcəyik. Bildiyiniz kimi, təhsil ölkənin gələcəyini yaradır və mən inanıram ki, fədakarlıq, zəhmət və məsuliyyət, eləcə də düzgün addımla biz Gürcüstanın daha yaxşı gələcəyini təmin edə biləcəyik",* – deyə Aleksandre Tsuladze bildirib.

Qeyd edək ki, Aleksandre Tsuladze İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin hüquq fakültəsini və Roma Sapientsa Universitetinin hüquq üzrə magistratura proqramını bitirib. O, həmçinin hüquq elmləri doktoru dərəcəsinə malikdir.

Aleksandre Tsuladze 2010-cu ildən Gürcüstanın müxtəlif universitet və təhsil müəssisələrində akademik fəaliyyətlə məşğuldur. O, Kolumbiya Universitetində (Nyu-York, ABŞ) uzunmüddətli tədqiqat təqaüdü, Maks Plank adına Beynəlxalq və Müqayisəli Cinayət Hüququ İnstitutundan (Hamburq, Almaniya) və Gürcüstanın Şota Rustaveli Milli Elm Fondundan tədqiqat qrantları almışdır.

O, mübahisələrin həllinin alternativ üsullarına dair monoqrafiyaların, dərsliklərin və məqalələrin müəllifi, həmçinin Gürcüstan Mediatorlar Assosiasiyasının təsisçi üzvüdür.

Aleksandre Tsuadze 2019-2023-cü illərdə Ali Məhkəmənin hakimi, 2023-cü il 28 dekabrdan 2024-cü il 31 iyula qədər isə Gürcüstanın təhsil, elm və gənclər nazirinin birinci müavini vəzifəsində işləyib.

Xatırladaq ki, Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilaxvari 28 sentyabr tarixində istefa verib. O, 2023-cü il martın 20-dən bu vəzifəni tuturdu.

## 2022-2023-CÜ TƏDRİS İLİNDƏ 14911 ŞAGİRD TƏHSİLİNİ DAYANDIRIB



2022-2023-cü tədris ilində Gürcüstanda 14911 şagird təhsilini dayandırıb. Bu, son 10 ilin rekord göstəricisidir.

Milli Statistika Xidmətinin məlumatına əsasən, təhsilini dayandıranlardan 6409-u qız, 8502-si isə oğlan olub.

***İllərə görə təhsilini dayandıran şagirdlərin sayı aşağıdakı kimidir:***

2013-2014 – 14057 (5886 qız, 8171 oğlan);

2014-2015 – 12307 (5348 qız, 6959 oğlan);

2015-2016 – 11512 (4835 qız, 6677 oğlan);

2016-2017 – 11769 (4740 qız, 7056 oğlan);

2017-2018 – 12298 (4769 qız, 7529 oğlan);

2018-2019 – 12049 (4908 qız, 7141 oğlan);

2019-2020 – 8247 (3382 qız, 4865 oğlan);

2020-2021 – 7050 (3017 qız, 4033 oğlan);

2021-2022 – 8846 (3770 qız, 5076 oğlan);

2022-2023 – 14911 (6409 qız, 8502 oğlan).

Xalq Müdafiəçisinin hesabatına əsasən, 2021-ci ildə 2698 uşaq, 2022-ci ildə 5508 uşaq, 2023-cü ildə 5604 uşaq ölkəni tərk etdiyinə görə təhsilini dayandırıb.

## GÜRCÜSTANIN TƏHSİL NAZİRLƏRİNİN ÇOXU HÜQUQŞÜNAS OLUB



Bu il oktyabrın 2-də Aleksandre Tsuladze təxminən bir il əvvəl təyin olunmuş Giorgi Amilaxvarini əvəzləyərək təhsil naziri təyin edilib. Yeni nazir də öz sələfi kimi ixtisasca hüquqşünasdır. Ona görə də keçmiş təhsil nazirlərinin ixtisaslarına nəzər salmaq qərarına gəldik.

**Aleksandre (Kaxi) Lomaia** 2004-2007-ci illərdə təhsil naziri olub. O, 1985-ci ildə Gürcüstan Politexnik İnstitutunda su elektrik stansiyası tikintisi üzrə mühəndis ixtisasına yiyələnib. 1992-ci ildə isə Moskva İnşaat Mühəndisliyi İnstitutunun aspirantı olub və texniki elmlər namizədidir.

**Maia Miminoşvili** 2008-ci ildə Gürcüstanın təhsil naziri olub. O, Tbilisi Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini və A.Razmadze adına Riyaziyyat İnstitutunun aspiranturasını bitirib.

**Giorgi (Giya) Nodiya** da 2008-ci ildə təhsil naziri olub. Politoloq, alim, pedaqoq, siyasətçi və filosof olan G.Nodiya Tbilisi Dövlət Universitetini fəlsəfə ixtisası üzrə bitirib. 1982-ci ildə dissertasiya müdafiə edib və fəlsəfə elmləri namizədi olub.

**Nika Qvaramiya** 2008-2009-cu illərdə Gürcüstanın təhsil naziri olur. N.Qvaramiya Tbilisi Dövlət Universitetinin hüquq fəkültəsini bitirib.

**Dimitri Şaşkin** də ixtisasca hüquqşünasdır. Əvvəl penitensiar müəssisələrin rəhbəri olmuş D.Şaşkin 2009-2012-ci illərdə Təhsil Nazirliyinə rəhbərlik edir. O, Aristotel adına Gürcü-Yunan Universitetinin beynəlxalq hüquq fakültəsini bitirib. 1993-cü ildə isə Tbilisi Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olub.

**Xatia Dekanoidze** 2012-ci ildə təhsil naziri olub. O, Tbilisi Dövlət Universitetinin beynəlxalq əlaqələr fakültəsini bitirib.

**Giorgi Marqvelaşvili** 2012-2013-cü illərdə Gürcüstanın təhsil və elm naziri olub. O, 1987-1992-ci illərdə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində təhsil alıb. Müəllimlik sertifikatı var. 1993-1994-cü illərdə Mərkəzi Avropa Universitetində təhsil alıb. Filosof, psixoloq, sosioloq, pedaqoq kimi fəaliyyət göstərib. Fəlsəfə doktorudur.

**Tamar Sanikidze** də 2012-2013-cü illərdə təhsil naziri olub. O, Tbilisi Dövlət Universitetində ingilis dili və ədəbiyyatı ixtisasına yiyələnib. Həmçinin Gürcüstan İctimai İşlər İnstitutunda dövlət idarəçiliyi üzrə magist təhsili alıb.

**Aleksandre Cecelava** 2013-2016-cı illərdə təhsil naziri olub. O, Tbilisi Dövlət Universitetini tətbiqi riyaziyyat, kompüter elmləri ixtisası üzrə bitirib. Ümumi idarəetmə üzrə magist dərəcəsi var. Corc Vaşinqton Universitetində layihələrin idarəedilməsi üzrə magist təhsili alıb.

**Mixeil Çxenkeli** 2016-1017-ci illərdə təhsil naziri olub. Çxenkeli Tbilisi Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirib. Həmçinin Pensilvaniya Universitetində təhsilini davam etdirib, harada ki, riyaziyyat üzrə doktor elmi dərəcəsi alıb və 20 il ABŞ-nin aparıcı universitetlərində dərs deyib.

**Mixeil Batiaşvili** 2018-2019-cu illərdə Təhsil Nazirliyinə rəhbərlik edib. O, Tbilisi Dövlət Universitetinin psixologiya fakültəsini bitirib.

2019-cu ildən 2023-cü ilə qədər Təhsil Nazirliyinə yenidən Mixeil Çxenkeli rəhbərlik edib.

**Giorgi Amilaxvari** 2023-2024-cü illərdə Gürcüstanın təhsil, elm və gənclər naziri olub. Amilaxvari İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Almaniyanın Hamburq şəhərində Maks Plank adına Beynəlxalq və Müqayisəli Cinayət Hüququ İnstitutunda araşdırma üzrə təcrübə keçib və hüquq üzrə assosiativ professordur.

Yeni təhsil, elm və gənclər naziri **Aleksandre Tsuladze** də İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Hüquq elmləri doktorudur.

Gördüyümüz kimi, Gürcüstanın təhsilinə rəhbərlik etmiş bu 13 nəfərin əksəriyyəti hüquqşünasdır, aralarında filosof, siyasətçi, hətta su elektrik stansiyasının tikintisi üzrə mühəndis də var, amma və lakin bir nəfər də olsun təhsil üzrə araşdırmaçı yoxdur.

***Səhifədəki məlumatlar "edu.aris.ge", "etaloni.ge" və "inforustavi.ge" saytlarından götürülüb.***

***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# QIZLAR QIZILA DÖNÜB, XƏBƏRİ YOX NƏNƏLƏRİN



Hamımız uşaqlıqdan "oğlun sağ olsun", "Allah oğul versin", "yeddi oğul istərəm..." və bu kimi alqışların əhatəsində böyümüşük. Nənələr fəxrlə anladırdı ki, oğul nəslin davamçısıdır. Qız yad ocağa saxlanan qonaqdır. Bu cavabın necə böyük zərbə olduğunu daha dərin hiss etmək üçün gərək ata evində əzizlənən ərköyün bir qız olasan və düşünəsən ki, nə vaxtsa buradan yad adamlar əhatəsinə gedəcəksən, orada yaşayacaqsan. Bax, əminəm ki, əksər milli ailələrimiz bu psixologiya ilə fokuslanıb.

Gəlin bir az tarixi geri vərəqləyək. Hələ lap qədim zamanlarda bizdən uzaq sahillərdə qız uşaqlarının diri-diri basdırılması kimi fərziyələr yazılsa da, şəxsən mən o fikri qəbul etmirəm. O halda soy davam etməzdi. Hansısa cahillərin seyrək addımları tarix ola bilməz!

Cahilliyin pəncərəsindən görünməyən uzaqlarda bir ANA XAQANLIĞI da vardı. Cəmiyyəti qadınlar yönəldərdi. Dünyaya qız uşağı kimi gələn analar, sonralar cəngavər döyüşçü qızlarımız tarix yazdı. Ata soyunu davam etdirməsələr də oğul soyunu şərəflə ucaltdılar.

Məqsədli böhtançıların islam adına bağlamaq istədikləri qadın hüquqsuzluqları tamamilə səhvdir düşünürəm. Dinimizin təməl daşı cənnəti qadının ayağına gətirən peyğəmbərimiz qız uşaqlarına tam fərqli davranarmış. Hətta hədislərdə deyilir ki, otağa girən qızı Fatiməyə qalxar, yer verər, öz sağında oturdarmış.

Biz xalq olaraq işğal tarixi yaşamasaydıq Şərqin ilk diplomat qadını olan Sara Xatun kimi qızlarımız çox olacaqdı. Saf dini baxışları, xeyirxah əməlləriylə xatırlanan Hacı Zeynalabdin Şərqdə ilk qızlar məktəbini yaratdı. Yüzlərlə türk qızı təhsil yoluna oradan başladı, zamanla ziyalı qadın, ziyalı ana, ziyalı ömür yoldaşı kimi türk oğlunu, qızını yetişdirdilər.

Biz tariximizdə ata xəttini götürmüşük və bu səbəbdən də oğul övladının varlığı nəslin davam etməsi kimi qəbul edilir. Bu, oğlun varlığının tamamlanması demək deyil. İnanın, nəinki ananın, atanın, qardaşın, hətta bacının özünün də bacıya o qədər böyük ehtiyacı var ki, əlbəttə, yaxşı bacıya, yaxşı qıza.

*Oğul mənim ocağımda yandıranda odumu,*
*Harda olsa qız çəkəcək şirin-şirin adımı.*

Bəli, həmin nənələr həm də onu deyirdilər ki, xeyirin də, şərin də urvatı qız imiş. Oğul maddi yük çəksə də, bütün mənəvi yüklərimizin ağırlığı qızların boynuna düşür. Hətta ataların kövrək ürəklərini qızları qədər kimsə ovuda bilməz.

Vağzalı sədasına kövrələn, gəlin qızının alnından öpüb yola salan ata üçün də qızlarının ocaqdan pərvazlanmağı asan olmur. Atalar əksər halda qızlarına daha çox bağlı olurlar.

Yəqin elə həmin nənələr ki vardı, qız yükü – duz yükü deyirdilər, oğul adına qurban kəsirdilər, oğul başına and içirdilər – onlar qız nəvələri istəməyən əzrayıllar yetişdirdilər. Yüzlərlə qız uşaqlarının ana bətnində doğranaraq götürülməsi, mənə elə gəlir, bizim milli faciəmizdir. Övlad qatili olmağın bu da bir variantı deyildimi. Şahidi olduğum bir neçə bu hadisə həyatım boyu rastlaşdığım ən böyük fəlakət idi.

Əminəm ki, heç bir digər xalq oğlan-qız fərqi ilə ailə planlaması adıyla belə qəbahətə yol verməz.

Bax, o dünənki düşüncəsizliyin nəticəsi isə bu gün məktəb siniflərində kəskin cins fərqi yaradır. Necə deyərlər, qız qızıla dönüb, yox xəbəri nənələrin.

BMT Baş Assamleyası 2012-ci ildən 11 oktyabrı Beynəlxalq Qızlar Günü kimi qeyd edir.

Bax, o cahil nənələr bunu düz deyirlərmiş ki, ölümüzün də, dirimizin də urvatı qızlar imiş.

Gəlin kiçik qız deyib keçməyək. Bu qız sabahın anası, ləyaqəti, şərəfidir.

Mən də qızımın timsalında bütün fidan qızlarımızı təbrik edirəm! Onlara gülər üz, sağlam can arzulayıram!

*Qadın gülərsə şu issız mühitimiz güləcək,*
*Sürüklənən bəşəriyyət qadınla yüksələcək! (H.Cavid)*

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# POTLAÇIN TƏHSİLƏ SIÇRAYIŞI



Yazıya başlamamışdan əvvəl onu qeyd edim ki, yazını heç kimə ünvanlamıram. Lakin kimsə mövzunu öz üstünə götürüb burada öz obrazını görsə, deməli, o özü həqiqətən də bu cür insandır.

Seçkilərə on günə yaxın bir müddət qaldığı hər kəsə məlumdur. Bu müddət ərzində isə hər seçkiqabağı olduğu kimi, potlaç öz qaydasında irəliləməyə davam edir. Bu il bəxtimizdən bizim asfaltsız küçəmiz də potlaçdan yan keçmədi. Düzdür, təmir işləri başladı, amma sona çatmamış niyyəsə dayandı. Yəqin səs toplamağa sakin sayı bizim məhlədəkindən çox olan başqa təmirsiz küçə tapıblar. Lakin mövzumuz bu deyil. Həm də, seçkiyə hələ on gün var, yəqin ona qədər düzələr. Düzəlməsə də sonrakı illəri gözləyərik. Onsuz belə görünür ki, hamı bu hala alışıb, asfaltsız yoldan məmnundur və hər seçki öncəsi eyni ssenarilər təkrar olunur. Yəqin bir gün baş rolda bizim küçəmiz də çıxış edər. İndi isə keçək başlıqda qeyd olunan mövzuya.

Hamıya məlum olan mövzudur ki, seçkiqabağı rayonun, şəhərin bütün aidiyyəti qurumlarında bir canlanma baş verir, həyat müvəqqəti olaraq rənglənməyə başlayır. Elə bu zaman əhalidə də bir canlanma baş verir, hamı dövlətdən öz haqqını tələb edir, yaşadığı yerdəki çatışmazlıqları görüb ərizə yazır və sair. Bu mövzuya dair daha çox oxumaq istəsəniz redaktorumuz Azər Musaoğlunun "Seçkiqabağı vətəndaşı və seçkiqabağı hakimiyyəti" başlıqlı məqaləsini oxumağınızı tövsiyə edirəm. Hər seçki öncəsi şahid olduğumuz potlaçları böyük ustalıqla öz yazısında əks etdirib. Mən elə düşünürdüm ki, hakimiyyət həmişə bu potlaçı eyni qaydada yerinə yetirir. Amma fərqinə vardım ki, "menyuya" yeni bir üsul əlavə ediblər ki, bu da təhsil sistemi və gənclik mövzusudur.

Bu il namizədliyini irəli sürən partiyalardan biri bu iki mövzuya digərləri ilə müqayisədə daha çox toxunub və hələ "Gələcək sənindir" kimi şüarı belə mövcuddur. Həmin partiyanın üzvləri, təbii ki, Gürcüstanda yaşayan etnik azlıqlar üçün yaradılmış "1+4" proqramına da toxunaraq potlaç temasını ona da bulaşdırıblar. Onlar hazırlıq kursunun ödənişli (ildə 2250 lari) olması, bu kursda oxuyan tələbələrin mövcud olan tələbə təqaüdündən yararlana bilməməsi və ümumi yataqxana mövzularına toxunublar. Onu da qeyd edim ki, heç də haqsız deyillər. Amma iş orasındadır ki, görəsən sözügedən partiya parlamentə, hakimiyyətə gələndə tələbələrin sözügedən problemləri aradan qalxacaqmı? Yoxsa yenə bütün bu reklamsayağı çəkilişlər yalnız göz boyama üçündürmü? Qaldı ki, tələbə problemlərinə, bu, yalnız hazırlıq kursunun 2250 lari olması ilə bitmir. Yəni əgər bu partiyanın doğrudan da məqsədi bu cür problemləri aradan qaldırmaqdırsa, ilk öncə problemin iyerarxik sistemini qurmalıdır. Tutaq ki, tələbə bir il heç bir ödəmə etmədən hazırlıq kursunu müvəffəqiyyətlə başa vurub bakalavr dərəcəsinə yüksəldi və o, hələ bundan sonra ən azı dörd il universitet oxumalıdır. Bəs sonrakı illər necə? Cavab sadədir: tələbə gürcülərlə eyni qaydada pul ödəyərək bakalavr dərəcəsində təhsil almağa davam edəcək. Bəs hansı biliklə? Məgər hazırlıq kursunda tələbə cəmi bir ilə dili o qədər yaxşı öyrənir? Təəssüf ki, bəziləri üçün bunun cavabı "xeyr"dir. Çünki hamı dili eyni səviyyədə yaxşı öyrənə bilmir. Bunları nəzərə alaraq onu deyə bilərəm ki, buradakı məqsəd diqqəti dövlət dilinin pulla tədris olunmasına yönəltməkdən ibarətdir. Bəlkə diqqətimizi həmin birillik təhsil proqramını ödənişsiz etmək fikrindən döndərib məktəblərdə gürcü dilinin daha yaxşı tədris olunmasına yönəltsək bu daha effektiv nəticə verər və beləliklə hazırlıq kursuna ehtiyac qalmaz.

Yataqxana mövzusuna gəldikdə isə, qeyd etmək lazımdır ki, Gürcüstanda yalnız iki tələbə yataqxanası mövcuddur və milli kimliyindən asılı olmayaraq bütün tələbələr üçün fəaliyyət göstərir. Hər iki yataqxana Tbilisi Dövlət Universitetinin bazasına daxil olduğu üçün hər il bu universitetin tələbələrinin əlaqə nömrəsinə qeydiyyat tarixinin başlaması ilə bağlı mesaj gəlir. İş burasındadır ki, bizim millət yataqxanada qalmaqdansa kirayə ev tutmağa daha çox üstünlük verirlər. Həmçinin bəzi valideynlər üçün gürcülərlə eyni otaqda qalmaqdansa gedib-gəlmək daha yaxşı variantdır.

Gedib-gəlməkdən söz düşmüşkən, heç orada yaşamayıb bir-iki saatlıq dərs üçün üç-dörd saat vaxt itirən tələbələrin vəziyyətindən xəbəri var görəsən həmin partiyanın və ya rayon hakimiyyətinin? Əlbəttə var, sadəcə sərf eləmir. Çünki bu onlar üçün xırda işdir. Lakin müəyyən səbəblər üzündən oxuduğu şəhərdə yaşamayıb gedib-gələn tələbə üçün bu ciddi problemlərdən biridir. Səbəb isə onların ictimai nəqliyyatdan istifadə edərkən üzləşdikləri çətinliklərdir. Bəzən avtobusda oturmağa yer olmur və tələbələr ayaq üstündə getməyə məcbur qalırlar. Oturmağa da yer tapanda ayaq üstə qalan bir nəfər gəlir dayanır başının üstündə, başlayır deyinməyə ki, böyüyə hörmət qalmayıb, nə bilim nə...

Kirayədə yaşayan tələbənin problemi isə, təbii ki, puldur. Onlar ailələrinə çox yük olmamaq üçün işləməyə başlayırlar. Kimisi mağazada, kimisi isə leqal olan kazinolarda. Bu vəziyyətdə yaşayan tələbələr üçün qaldırılan problem isə bizimkilərin niyə təqaüd proqramından yararlana bilməməsi məsələsi olur. İşin bu mərhələsində yuxarıda bəhs etdiyim iyerarxik sistem qüvvəyə minir. Əgər siz və ya hazırkı hakimiyyət bu xırda problemləri gözardı edib daha böyük problemləri irəli sürürsünüzsə, onda iş sistem olmaqdan çıxır. Bir də ki, Azər Musaoğlunun da dediyi kimi, bu cür mövzular həmişə seçkiqabağı qaldırılır. Əgər bir partiyanın məqsədi həqiqətən insanların problemlərini aradan qaldırmaqdırsa, onda seçkiləri gözləmək lazım deyil. Bəlkə əvvəlcə fəaliyyətə başlanılması insanların inamını daha da gücləndirər və hakimiyyətə gələn məhz onlar olar. Digər tərəfdən bunlar hamısı reklamdır və partiyaların heç biri hakimiyyətə gəldikdən sonra vədlərini yerinə yetirmirlər. Çünki onlar ölkənin ekonomik vəziyyətini nəzərə almadan boylarından böyük sözlər verirlər. Gəlin bir az realist olaq və düşünək ki, bizim dövlət büdcəmizin təhsil sahəsinə ayırdığı məbləğ o qədər tələbənin təhsil haqqını qarşılamağa yetərlidirmi? Bu cavabı sözügedən partiyaya buraxaq məncə. O partiyaya ki, "Gələcək sənindir" şüarı altında gənclərə müraciət edir və onun ali təhsil almaq istəyən gəncliyi universitetə avtobusda ayaq üstündə gedirlər və pul qazanmaq üçün kazinolarda işləyirlər.

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin sosial və siyasi elmlər fakültəsinin 1-ci kurs tələbəsi*

# MƏKTƏBİN VƏ MÜƏLLİMİN ROLU



Sağlam xarakterə malik şəxsiyyətin formalaşdırılması ailənin, məktəbin və cəmiyyətin əsas hədəflərindən biridir. Məktəb ailədən sonra uşaqların ən çox vaxt keçirdikləri ikinci mühitdir. Məktəb müxtəlif xarakterdə və yaşda olan insanların hər gün təmasda olduğu, onların inkişafında birinci və əsas rol oynayan sosial həyat modelidir. Məktəb sosial institut olmaqla hər bir uşağın ilk və mühüm sosiallaşma prosesi keçdiyi mühitdir. Bu baxımdan məktəb dövrü çox önəmlidir. Uşağın həyatında təhsil mühüm yer tutur.

Məktəb divarları arasında təhsilin bünövrəsi qoyulmaqla yanaşı hər bir uşağın təfəkkürünün və intellektual inkişafının formalaşması baş verir. Məktəb şagirdə akademik biliklər verməklə yanaşı insana xas digər özəlliklərin də yaranmasına və aşılanmasına xidmət edir. Şəxsiyyətin formalaşması müəllim tərəfindən təşkil edilir və istiqamətləndirilir. Təhsil prosesi çoxşaxəli hadisədir. Məktəbin müstəsna rolu müəyyən bilik və bacarıqların formalaşdırılması, fundamental insan keyfiyyətlərinin tərbiyə olunması və sosial davranışın əsaslarının öyrədilməsində mühümdür.

Ailədə başlayan inkişaf prosesi məktəbdə davam edir. Bu baxımdan məktəb dövrü çox önəmlidir. Məktəbdə təhsil prosesi zamanı müxtəlif dəyərlərin ötürülməsi baş verir və nəticədə bu, fərdlərin müəyyən davranış qazanmasına gətirib çıxarır. Biliklərin mənimsənilməsi prosesində hər bir şagird öz marağını və prioritetlərini inkişaf etdirir. Məktəbin uşağın inkişafına təsiri əsasən müəllimlərin təhsil prosesinə yanaşması ilə müəyyən edilir. Məktəblilər zamanla öz imkanlarını, gələcək fəaliyyətlərini dərk etməyə başlayırlar. Məhz burada müəllimin rolunun vacibliyi önə çıxır. Şagirdin dərslərə marağı birbaşa tədrisin keyfiyyəti ilə bağlıdır. Müəllim şagirddə öyrənmək üçün motivasiya yaratmaqla yanaşı onun bacarıqlarının inkişaf etdirilməsində də mühüm rol oynayır. Müəllim şagirdi dəstəkləməklə, ona idealları doğru və düzgün aşılamaqla ona məqsədə çatmaqda kömək etmiş olur.

Məktəbdə biliklərlə yanaşı davranış formaları da müəllimlər tərəfindən şagirdlərə ötürülür. Bu səbəbdən müəllimlərin şagirdlərin xarakterinin formalaşmasında rolu əvəzsizdir. Şagirdlər təlim-tədris prosesində aid olduqları cəmiyyətin dəyər və normalarını mənimsəyirlər. Şəxsiyyətin formalaşması məhz müəllim tərəfindən təşkil edilir və istiqamətləndirilir. Şəxsiyyətin özünüdərketmə prosesində tərbiyə böyük yer tutur. Sosial keyfiyyətlər isə cəmiyyətdən kənarda ictimai münasibətlər olmadan mövcud ola bilməz. Uşaq şəxsiyyətlərarası ünsiyyət mədəniyyətini dərk etməklə insanlara hörmətlə, tolerant yanaşmağı öyrənir, əməkdaşlığın əhəmiyyətini dərk edir. O, əxlaqi keyfiyyətləri düzgün şəkildə mənimsəyir və bu, onu əhatə edən məktəb mühitində baş verir. Məktəbdə hər gün iştirakçısı olduğu münasibətlər şagirddə qayğı, həmdərdlik, qarşılıqlı yardım kimi keyfiyyətlər aşılayır. Bütün bunlarla yanaşı şagird müsbət keyfiyyətlərlə birgə mənfi keyfiyyətləri də mənimsəmiş olur. Məhz bu zaman məktəb mühitinin rolunun vacibliyi önə çıxır.

Məktəblərlə yanaşı alternativ təhsil mərkəzləri, uşaqların inkişafına xidmət edən təhsil infrastrukturları gənclərin şəxsiyyət kimi yetişməsində öz töhfələrini verir. Cəmiyyətə dəyərli vətəndaş yetişdirməkdə onların rolu əvəzsizdir.

Dəyərli müəllimlərimizə çətin və şərəfli işlərində uğurlar arzulayıram!

**Leyla YUSİFOVA**
*Vətəndaş təhsili fənni üzrə müəllim*

# MƏN QADINAM – İNSANAM!



Allahın yer üzərində ağıl və düşüncə nemətilə yaratdığı ən mükəmməl, izzətli varlıq olan insan, ona verilən həyat o qədər dəyərli, o qədər əhəmiyyətlidir ki, irqindən, dinindən, düşüncəsindən, məzhəbindən, milli mənsubiyyətindən asılı olmayaraq “cana haqsız yerə qəsd etməyin” əmrilə bir canlının haqsız yerə öldürülməsini qadağan, yasaq edir və insan qətlini böyük bir günah, böyük bir cinayət olaraq dəyərləndirir.

Son zamanlar dünyada qadın və uşaq cinayətləri, istismarlar, şiddətlə bağlı yaşanan hadisələr dəhşətli dərəcədə artıb. Qətlə yetirilən qadınlar arasında gənci də, yaşlısı da var.

Biz qadınlar dünyanın hər yerində hər yeni günə biraz daha əskilərək başlayırıq. Çünki qadın qətlləri hər gün artır. Bəzən ən yaxını, bəzən də heç tanımadığı biri tərəfindən öldürülür, döyülür, dillə deyilməyəcək əziyyətlərə məruz qalırlar qadınlar.

Hər vaxt şiddətdən əvvəl bir yol mövcuddur. Sadəcə bunu dərk etmək lazımdır ki, qadına şiddət heç bir problemin həlli deyil. Doğrudur, şiddət hər toplumda və hər dönəmdə geniş yayılmış bir problemdir. Ancaq qadına qarşı şiddət daha çoxdur. Dünyada hər üç qadından ən azı biri ya döyülmüş, ya təcavüzə, ya da müxtəlif zorakılıqlara məruz qalmış olur. Qadına şiddət xəbərlərində bunu edənlərin əksəriyyətinin həyat yoldaşı, sevgilisi, atası, qardaşı, əmisi, dayısı, keçmiş əri, qayınatası və ya yaxın qohumları olduğunun dəfələrlə şahidi olmuşuq.

Bir insanın həyatı sosial medialarda həştəq olana qədər heç kim heç kimlə maraqlanmır. Bu dəqiqə, hazırda dünyanın hər hansı bir yerində yenə qadınlar ölür, öldürülür. Bir ana uşağının gözü önündə döyülür, can çəkir və bunlardan hər hansı birini kameraya çəkib paylaşmaqdan başqa heç nə gəlmir əlimizdən. Hər gün ölüm xəbərini oxuduğumuz qadınların adını hansı birimiz yaddaşımızda bir gündən çox saxlaya bilirik. Statistikalar, rəqəmlər il ərzində öldürülən qadınların sadəcə sayını hesablayırlar.

Bu dünyada qadın olmaq çox çətindir, amma ölmək çox asandır. Küçədə, metroda, binaya daxil olarkən arxamıza baxmadan yeriyə bilmədiyimiz, tək başına taksiyə minə bilmədiyimiz, azad bir şəkildə gəzə bilmədiyimiz, həmişə bir narahatçılıqla gəzdiyimiz dönəmdə yaşayırıq. Bunu etsəm başıma bu iş gələr qorxusuyla yox, caamat nə deyər qorxusuyla yaşayırıq.

Ötən günlərdə Türkiyədə baş verən qan donduran hadisəni bir çoxunuz bəlkə də gördünüz. Hələ 19 yaşında idi, gənclik illərinə yeni qədəm qoyurdu ki, bütün xəyalları yarıda qaldı... Vaxtında müalicə olunmamış hansısa psixə görə həyatına son verildi. Vəhşicəsinə öldürüldü...

Bir ana üçün övladının parça-parça edilib yerlərə atıldığını görmək, “kaş silahla öldürülsəydi, canı daha az yanardı” cümləsindən daha ağır nə ola bilər.

Mən sadəcə kiminsə qızı, bacısı, sevgilisi, dostu deyiləm. Mən bir qadınam – insanam! Bir kişi qədər yaşamağa layiqəm. Çöldə tək olanda sürətlə yerimək, çox ciddi və sərt görünmək məcburiyyətində qalmamalıyam. Sadəcə yanımda oğlan xeylağı olanda özümü rahat hiss etməli deyiləm. Ən acınası isə, bir gün başıma bir iş gəlsə, həmin saatda orada olmağımla, paltarımla maraqlanılacağını bilməyimdir.

Bir qadının yaşama hüququnu əlindən almaq üçün heç bir səbəb, heç bir bahanə ola bilməz və olmamalıdır.

Hər kəs öz qızına “qızım ağıllı ol, yoldan keçəndə başını aşağı sal, heç kimə fikir vermə, pis adamlara baş qoşma, dərslərinlə məşğul ol” deyir. Amma heç kim öz oğluna “oğlum küçədən keçəndə özünü vəhşi kimi aparma, kiminsə qızıyla işin yoxdur, tanımadığın, bilmədiyin adamlarla danışma, heç nə götürmə, nömrəni paylama” demir. Hər kəs öz qızına tərbiyə verir, amma bəzi oğlanlar hələ də qalıb.

Ona görə də illərdən bu yana bizim millət sadəcə “ər arvadı döyər də, söyər də” “mədəniyyətini” qoruyub saxlayır.

Ərin arvadını döyməsini normallaşdıran bir cəmiyyətdə yaşadığım üçün utanıram. Oğlu gəlinini gözü önündə döyərkən qıraqdan baxıb “qoy döysün, öldürsün, yaxşı eliyir, ona hələ bu da azdı” deyən qayınanalar, sırf yengəsindən xoşu gəlmir deyə qardaşını “dolduran” baldızlar, “ər-arvad arasında olar belə şeylər” deyib səs-küyü eşitməməzliyə vurub qapını örtən qonşular, “vurub da vurub, öldürməyib ha, bizi də öpüb başa qoymayıblar ki, heç nə olmaz” deyən xalalarım, ey qadın düşməni millətim, etmiyin, normalaşdırmayın şiddəti, cinayəti, təcavüzü gizlətməyin. Xalq nə deyər deyə ört-basdır etməyin, yazığınız gəlsin. Bu gün susanlar vicdanlarını necə susduracaqlar, göz yumduğunuz hər şey bir gün sizin də övladlarınızın başına gələ biləcəyini unudursunuz.

Kimsə anlamır ki, sevgi bu deyil, sevgi öldürmür, incitmir, ziyan vurmur, qorxutmur, ağlatmır. Sevgi sadəcə bu dünyada xoşbəxtlik bəxş etməlidir.

Sevdiyin qadını qətlə yetirməkdə isə heç bir sevgi göstəricisi yoxdur, əksinə, potensial vəhşilikdir bu.

Artıq söz tapmıram, həqiqətən bildiyim tək bir şey var: insanlar bu mövzuda əsla susmamalıdırlar!

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# ALEKSANDRE ORBELİANİ – XATİRƏLƏR

*(əvvəli ötən sayda)*

Dərhal otuz nəfərlə yola düşdük, ertəsi gün Marabda çölündən bir sürü qoyun oğurladım, gətirib şahzadəyə verdim, amma o, narahat oldu:

– Kimin evini yıxdın, o yazığınmı?

– Qadan alım, artıq əlac yox idi, bəs nə etməli idim? Tanrı sizin istəyinizi yerinə yetirəndə, bu qoyun yiyəsinə birə iki qat mərhəmətlik edin, – deyə Təhməzqulu ağa söylədi.

Şahzadə gülümsəyərək buyurdu:

– Bu, sözsüz ki, belə olacaq, əgər Tanrı mənim istəyimi yerinə yetirsə.

Təhməzqulu ağa yenə sözünə davam etdi:

– Bundan dörd gün sonra bir neçə atlı ilə bir gürcü keşiş gəldi və ondan artıq atın belinə yüklənmiş çörəklə dolu torbalar və tuluqlarda şərab, bişmiş toyuq əti ilə dolu xurcunları şahzadəyə təhvil verdi.

Şahzadə soruşdu:

– Sən keşiş deyilsən ki?

Mən ki, gürcücə başa düşmürdüm, Xudadbəy mənim üçün tərcümə edirdi. Sonra şahzadənin sualına keşiş belə cavab verdi:

– Bəli, mənim hökmdarım, mən keşişəm.

Şahzadə yaxınlaşdı, onun əlindən öpdü və sonra soruşdu:

– Keşiş, hara gedirsən?

– Sizin yanınıza gəldim, mənim hökmdarım, eşidəndə ki, siz bura təşrif buyurubsunuz, azuqə ilə sizin yanınıza gəldim, bəlkə lazım gəldi, bir söyləyin ki, mənə burada niyə dayanmısınız?

– Kürdən keçə bilmədik, daşıb, su çox gəlir. Kaxetiyə keçmək istəyirdim və burada qalmalı oldum, Kürün suyu azalana kimi.

– Buyurun, mənim hökmdarım, mən sizi elə keçid yerinə aparacağam ki, Kürün suyu atın topuğuna çatmır.

– Keşiş, sən haralısan?

– Mən Kartlidənəm, o biri tərəfdən.

– Nə vaxt istəyirsən gedək?

– Bu axşam qaranlıq düşəndə, onda buyurun gəlin, o zaman isə yaxşı məqamdır...

Keşiş o barxanadakı çörəyi, toyuğu hamımıza payladı, dörd ya beş gün idi ki, çörək görmürdük, hey qoyun əti yeyirdik və onda bizə çörək veriləndə çox ləzzətlə yedik, həm də keşişə təşəkkür edirdik. Biz tatarlar şərab içmirdik. Şahzadə isə, məncə, on gün olardı ki, şərab içmirdi və onda şərab onun çox xoşuna gəlirdi. Onun yanında olan gürcülər də çox ləzzətlə içirdilər.

Həmin gecə keşiş bizə bələdçilik etdi və sübh tezdən bizi bir meşəli dərəyə apardı və axşama kimi orada qaldıq. Axşamüstü keşiş harasa getdi, biz bundan narahat olduq, lakin tezcə də geri qayıtdı və şahzadəyə bildirdi:

– Qadan alım, çay keçidini buldum, nə lazım idisə yerinə yetirdim, indi buyurun, çay keçidi başlı-başınadır.

Elə həmin an atlandıq və tələsik yola düşdük. Keşiş bizi elə yerə apardı ki, doğrudan da əla yer idi. Bir kimsə də bizə rast gəlmədi və beləcə rahat şəkildə gəlib çıxdıq. Şahzadə keşişə çox-çox minnətdarlığını bildirdi: “Sizin bu yaxşılığınızı heç vaxt unutmayacağam”.

Elə həmin an tərpəndik, Kaxetiyə doğru yola düşdük.

Keşiş, onunla olan gürcülər də oradan çıxdılar.

Onda Kaxetini yenə ruslar sakitləşdirdi. Kaxetililər eşidəndə ki, şahzadə Aleksandre təşrif buyurub, yenə təkrar Kaxetini alov bürüdü. Kaxetililər silahı bir yerə topladılar və ruslarla yenə döyüşlər başladı. Burada şahzadə bizə xələtlər verdi. Böyük minnətdarlıqla haradan gəldiyimiz yerə bizi yola saldı. Şahzadənin namələri ilə Axalsixeyə paşanın yanına getdik”.

Bu əhvalatıTəhməzqulu ağa mənə danışdı.

Bir dəfə bu söhbəti əmim katalikos Antonun naziri (Nazir – XVII-XVIII əsrlərdə Gürcüstanda təsərrüfat-maliyyə sahəsində məmur – Tərc.) Nikoloz Eliozaşviliyə bizim köhnə söhbətlərdə müxtəlif şeyləri danışdım. O mənə dedi: “Mən də o əhvalatı bilirəm”. Ondan sonra o keşişin kim olduğunu soruşdum. Mənə cavab verdi:

– Bu keşiş Zebede idi. Həmin keçidə şahzadəni aparan keşiş. Dimitri Tarxnişvili məhz elə şahzadə Aleksandreyə görə iki yüz nəfər rus kazakını bura yığmışdı. Onun gələcəyini bilirdilər və qorxurdular ki, bu keçiddən keçməsin və ona görə də bu keçidi bağlamışdılar. O keşişin adamı daha əvvəl Dimitrinin yanına gəlib dedi: “Bu gecə şahzadə təşrif buyuracaq, sən öz kazaklarınla buradan çıx, şahzadə sizə sevgi dolu salamını da ismarladı”.

Həmin keşişin ismarıcına görə Dimitri şahzadənin gəlişindən çox məmnun oldu və buna görə də həmin axşam öz kazakları ilə o keçiddən tamamilə çıxdılar, başqa tərəfə getdilər. Həmin keşiş axşamüstü şahzadənin yanına gələsi olduğuna görə, keçidi yoxladı. Gördü ki, orada heç kim yoxdur. Gəlib şahzadəni rahat şəkildə apardı. Bunu da mənə o



nazir Nikoloz danışdı.

Lakin kaxetililər yenə də bir şey edə bilmədilər və ikinci dəfə Kaxeti əhalisini sakitləşdirdilər. Oradan tutulan tavadları bura, Tiflis şəhərinə, əli-qolu bağlı olaraq gətirdilər və buradan Sibirə göndərdilər. Bəziləri şahzadə Aleksandre ilə birgə Dağıstana üz tutdular və bəziləri Qızılbaş məmləkətinə keçdilər. Bir çoxunu ruslar bağışladı. Bu ikinci Kaxeti iğtişaşlarında bibilərim Yekaterine və Quka (Əvvəllər də demişəm, Yekaterine Saqareco mouravisi tavad Tamaz Çoloğaşvilinin, Quka da Kaxeti aznauru Qocasp Natelaşvilinin həyat yoldaşı idi. Bu, şahzadə Aleksandre ilə birlikdə Dağıstana getdi, oradan da İrana keçdi və orada onunla birgə dünyasını dəyişdi. Mənim bibim Yekaterinenin oğlu gənc Tadia da bu ikinci Kaxeti ixtişaşlarına qatıldı və ruslara qarşı çox böyük iş gördü. Lakin sonda o da İrana keçdi və oradan Yermolov öz dövründə Tadianı, Sibirdən bütün tavadları Gürcüstana gətizdirdi) camaatın içinə çıxıb onları coşdururdular və başqa çoxlu qadınlar da onlara qoşulmuşdular, lakin ruslar başqalarını təqib etmədilər, o iki bibimi əli-qolu bağlı bura, Tiflisə gətirdilər və elə buradan da əli-qolu bağlı Rusiyaya yolladılar. Bibim Yekaterine orada öldü, Qukanı yenə bura, Tiflisə gətirdilər.

*(son)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ *HAQQIN SÖZÜ – SÖZÜN HAQQI*

*15 OKTYABR 2024-CÜ İL № 17 (212)*

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

## YOR MUĞANLIDA AZƏRBAYCANIN MALİYYƏ VƏSAİTİ HESABINA İNŞA OLUNMUŞ UŞAQ BAĞÇASININ AÇILIŞI OLUB



Gürcüstanın Saqareco rayonunun Yor Muğanlı kəndində Azərbaycanın maliyyə vəsaiti hesabına yeni inşa olunan uşaq bağçası istifadəyə verilib.

Bağçanın açılışında Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini Əli Əhmədov, maliyyə naziri Samir Şərifov, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Arzu Nağıyev, deputatlar, səfir Faiq Quliyev, SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov, Gürcüstan tərəfindən Baş nazir İrakli Kobaxidze və digər rəsmi şəxslər iştirak ediblər.

Mahir Məmmədov bildirib ki, uşaq bağçası Azərbaycan dövlətinin başçısının tapşırığı ilə SOCAR-ın Gürcüstan nümayəndəliyinin maliyyə vəsaiti hesabına inşa olunub. 180 yerlik uşaq bağçasının tikintisinə 2023-cü ilin aprel ayında başlanılıb, uşaqların təlim-tərbiyəsi, istirahəti və əyləncəsi üçün hər cür şərait yaradılıb. Bu gün Yor Muğanlı və ətraf kəndlərdən 130 uşaq bu bağçanın imkanlarından istifadə edir. Ehtiyac yaranacağı təqdirdə, bağçada uşaqların sayı 240-a çatdırıla bilər.

Azərbaycan və Gürcüstan nümayəndə heyətinin üzvləri uşaq bağçasının binasını gəzib, görülən işlər və uşaqlar üçün yaradılan şəraitlə tanış olub, lazımi tapşırıq və tövsiyələrini veriblər.

Əli Əhmədov deyib ki, Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarına daim diqqət və qayğı göstərir. Bu günə qədər Gürcüstanda Azərbaycan dövlətinin dəstəyi ilə bir neçə məktəb, mədəniyyət ocaqları, idman kompleksləri, uşaq bağçaları tikilərək istifadəyə verilib. Onlarla sosial obyekt əsaslı təmir olunub, bu cür tədbirlər bundan sonra da davam etdiriləcək.

Baş nazir İrakli Kobaxidze bağçanın tikintisinə görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib. O, Azərbaycan dövlətinin dəstəyi ilə Gürcüstanda həyata keçirilən sosial layihələrin dostluğun və qardaşlığın bariz nümunəsi olduğunu bildirib.

## QARA DƏNİZ SUALTI ELEKTRİK ENERJİSİ KABELİ LAYİHƏSİ 2030-CU İLƏDƏK TAMAMLANACAQ

Qara dəniz sualtı elektrik enerjisi kabeli layihəsi 2030-cu ilədək tamamlanacaq. Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze hakim "Gürcü Arzusu" partiyasının seçki proqramını təqdim edərkən deyib.

O, qeyd edib ki, uzunluğu 1155 kilometr olacaq ötürücü kabel Avropaya elektrik enerjisinin ixracına imkan verəcək, həmçinin Avropa ilə internet əlaqəsini daha sürətli edəcək.

"Bu layihənin həyata keçirilməsi çox vacibdir. Bizim tərəfdaşlarımız konkret ölkələrdir: Rumıniya, Azərbaycan, Macarıstan. Bu çox mühüm layihə onlarla tərəfdaşlıq şəraitində həyata keçiriləcək", – İ.Kobaxidze bildirib.



## MİLLİ MÜƏLLİM MÜKAFATININ QALİBİ NATİA UÇAVA SEÇİLİB



2024-cü ilin Milli Müəllim Mükafatının qalibi 5 oktyabr – Beynəlxalq Müəllimlər Günündə elan edildi. Natia Uçava Tbilisi 126 saylı ictimai məktəbin ibtidai sinif, gürcü dili və ədəbiyyatı, riyaziyyat, tətbiqi və təsviri incəsənət, təbiətşünaslıq müəllimidir.

Natia Uçava kampaniyanın baş sponsoru Qudavadze-Patarkaçişvili Fondu tərəfindən 15000 lari ilə mükülfatlandırılıb.

Qeyd edək ki, müsabiqənin baş sponsoru Qudavadze-Patarkatsişvili Fondu, qızıl sponsoru "Liberty" Bank və İlia Dövlət Universitetidir. Dəstəkçilər: EPAM Georgia, Konsultasiya və Təlim Mərkəzi (ctc), "Alte" Universiteti, İctimai televiziya.

Milli Müəllim Mükafatı 2017-ci ilin 13 mayında təsis edilib. Qeyd olunan təşəbbüs Gürcüstanda artıq 8-ci dəfə həyata keçirilir və müəllimlik peşəsinin populyarlaşdırılmasına yönəlmiş qlobal – "The Global Teacher Prize" şirkətinin bir hissəsidir.

## MİXEİL SAAKAŞVİLİYƏ QARŞI YENİ İTTİHAM İRƏLİ SÜRÜLÜB



Gürcüstanın Baş prokurorluğu sabiq prezident Mixeil Saakaşviliyə qarşı yeni ittiham irəli sürüb.

Prokurorluğun bəyanatında Mixeil Saakaşvilinin 2016-cı ildə öz partiyasından olan sabiq deputat Givi Tarqamadzeyə qarşı sui-qəsd tapşırığı verməkdə ittiham edilib.

Qeyd olunub ki, Gürcüstan Daxili İşlər Nazirliyinin əməkdaşları sentyabrın 19-da Givi Tarqamadzeyə və digər şəxslərə qarşı sui-qəsd təşkil etmək ittihamı ilə axtarışda olan Darço Xeçuaşvilini həbs ediblər. Məlumata görə, cinayət işi çərçivəsində saxlanılan şəxsin sorğu-sual edilməsi zamanı göstərişin sabiq Prezident Mixeil Saakaşvili tərəfindən verildiyi, sui-qəsdin planlaşdırılmasında sabiq daxili işlər naziri Giorgi Lordkipanidzenin də iştirak etdiyi məlum olub.

Bildirilib ki, buna səbəb Givi Tarqamadzenin 2016-cı il seçkilərindən əvvəl hazırkı hakim partiya "Gürcü Arzusu" ilə əməkdaşlıq etməsi olub.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.